# HEMOFİLİYA ZAMANI

"Hemofiliyalı Xəstələr" İctimai Birliyi

YANVAR-DEKABR (2023)

www.hemofiliya.az

MÜALİCƏ HAMI ÜÇÜNDÜR

"Hemofiliya Zamanı" "Hemofiliyalı Xəstələr" İctimai Birliyinin ödənişsiz informasiya bülletenidir

# Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr edilmiş Dünya Hemofiliya Günü münasibəti ilə Elmi Konfrans keçirilib




Tədbirə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Tibbi planlama departamentinin rəhbəri Hikmət İbrahimli, TƏBİB-in icraçı direktorunun müşaviri Pərvin Əkbərov, Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasının sədri Ayaz Hüseynov və digərləri qatılıblar.

Açılış nitqi ilə çıxış edən Ayaz Hüseynov 2020-2023-cü illər üzrə Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasının dövlət səhiyyə qurumları ilə əməkdaşlığı və əldə edilən nailiyyətlər haqqında məlumat vermiş, Azərbaycanda stomatoloji, fizioterapevtik və dərman preparatları ilə müasir müalicənin həyata keçirilməsinin vacibliyini vurğulamışdır.

Çıxış edən Hikmət İbrahimli Azərbaycanda hemofiliyadan və digər irsi qan xəstəliklərindən əziyyət çəkən insanların müalicəsi ilə bağlı atılan addımlardan, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin hemofiliya xəstəliyi ilə mübarizə tədbirləri çərçivəsində gördüyü işlərdən danışıb.

Konfransın 1-ci elmi hissəsində cənab Pərvin Əkbərov və xanım Yeganə Əzizovanın sədrliyilə *"Hemofiliyada əzələ-skelet sisteminin müalicəsi"* və *"Hemofiliyada oynaq daxili qanaxmaların fəsadlarının aradan qaldırılmasında fizioterapiyanın rolu"* mövzusunda təqdimatlar olmuşdur.

Cənab Valeh Hüseynovun və cənab Elviz Qasımovun sədrliyilə Konfransın 2-ci elmi hissəsində Respublika Kliniki Xəstəxanasının Hematologiya şöbəsinin müdiri Dr. Naidə Hüseynzadə, Dr. Sevil Cəlilova Yeni Klinika Xəstəxanasının Hematoloqu, İcbari tibbi sığorta üzrə Dövlət Agentliyi, Tibbi planlama departamentinin koordinatoru Dr. Mehparə Kazımova, Milli Hematologiya və Transfuziologiya Mərkəzinin revmatoloqu Dr. Şəhla Hadıyeva, Şirvan Şəhər Mərkəzi Xəstəxanasının Xəstə xidmətləri şöbəsinin müdiri Dr. Təranə Cəlilova *"Hemofiliyanin müasir müalicəsi və gen terapiyasi"*, *"Qanın laxtalanma sistemi və onun patologiyalari"*, *"Azərbaycanda hemofiliyanin ağırlaşmalarının müalicə prinsipləri"*, *"Hemofiliyada oynaq zədələnmələrinə müasir yanaşma"*, *"Regionlarda hemofiliyaya qayğı və bu istiqamətdə gələcək prespektivlər"* haqqında təqdimatlar iştirakçıların diqqətinə çatdırılmışdır.

Paralel sessiyalar zamanı Milli Hematologiya və Transfuziologiya Mərkəzinin stomatoloqu Dr. Abbas Abdullayev, Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasının könüllü stomatoloqu Dr. Aybəniz Şahmuradova və tibb bacısı Sonaver Məhərrəmova tərəfindən *"Qanın laxtalanma pozğunluğundan əziyyət çəkən insanların ağız boşluğunun qorunmasında xüsusi yanaşma"*, *"Hemofiliyali pasiyentlərdə breket müalicəsinin faydaları"*, *"Hemofiliyanın müalicəsində ilkin tibbi yardım"*, *"Faktor preparatlarinin damardaxili inyeksiyasi və damarlarin qorunması"* mövzusunda stomatoloqlar və tibb bacıları üçün seminarlar keçirildi.
























17.02.2023

## TƏBİB-də Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasının nümayəndələri ilə görüş keçirilib

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İcraçı direktoru Vüqar Qurbanov Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasının sədri Ayaz Hüseynov və sədr müavini Yeganə Tağıyeva ilə görüşüb. Görüşdə TƏBİB-in İcraçı direktorunun müavini Anar İsrafilov və müşaviri Pərvin Əkbərov da iştirak ediblər.

Görüş zamanı Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasının sədri Ayaz Hüseynov TƏBİB-in İcraçı direktoruna son iki il ərzində birgə əməkdaşlıq nəticəsində pasiyentlərin müalicə keyfiyyətinin artırılması istiqamətində görülən işlər barədə məlumat verib.

Eyni zamanda görüşdə Assosiasiyanın cari 2023-cü ilə aid "Fəaliyyət planı" təqdim edilib və cari il ərzində görüləcək işlərlə bağlı müzakirələr aparılıb.

Qeyd edilib ki, 2023-cü ildə Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasının TƏBİB-lə bərabər 28 fevral Beynəlxalq Nadir Xəstəliklər Gününə həsr edilmiş elmi simpoziumunun, 17 aprel Dünya Hemofiliya Gününə həsr edilmiş elmi konfransın təşkili, regionlarda tibb işçiləri üçün qanın laxtalanma pozğunluğuna dair seminarların təşkili, pasiyent advokasiyasına dair beynəlxalq konfransın təşkili və digər maarifləndirici tədbirlərin keçirilməsi nəzərdə tutulub.



01.03.2023

## Azərbaycanda ilk dəfə Beynəlxalq Nadir Xəstəliklər Gününə həsr edilmiş Elmi Simpozium keçirildi











Pasiyent Təşkilatları İttifaqı Azərbaycan Hematologiya Mütəxəssisləri İctimai Birliyilə birgə təşkil etdiyi Elmi Simpozium 120 nəfərdən çox müxtəlif sahədə çalışan tibb mütəxəssislərin böyük marağına səbəb oldu.

Tədbirin açılışında Pasiyent Təşkilatları İttifaqının sədri Ayaz Hüseynov, Azərbaycan Hematologiya Mütəxəssisləri İctimai Birliyinin sədri Valeh Hüseynov, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin sektor müdiri Aynurə Zeynalova, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin departament müdiri Hikmət İbrahimli,TƏBİB-in icraçı direktorunun müşaviri Pərvin Əkbərov, TƏBİB-in departament müdiri Teymur Mirzəbəyli Simpoziumun keçirilməsinin vacibliyini vurğulayaraq Elmi Simpoziumun işinə müvəffəqiyyətlər arzulanmışdır. Habelə səhiyyə yönümlü Qeyri-Hökumət təşkilatları tədbirdə iştirakçı qismində olaraq elmi mövzuları dinləmişlər və nadir xəstəliklər haqqında maariflənmişlər.

Elmi Simpoziumda müxtəlif profillər üzrə rast gəlinən nadir xəstəliklər haqda Azərbaycanın aparıcı mütəxəssisləri tərəfindən danışılaraq mövzu ətrafında geniş müzakirələr aparılmışdır.



## 20.04.2023-cü il tarixində Füzuli Rayon Mərkəzi Xəstəxanasında yeni Fizioterapevtik və Reabilitasiya kabinetlərinin açılışı keçirildi



Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB), Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyası, Novo Nordisk Hemofiliya Fondunun dəstəyi ilə TƏBİB-in tabeliyindəki Füzuli Rayon Mərkəzi Xəstəxanasında yeni Fizioterapevtik və Reabilitasiya kabinetlərinin açılışı olub.

Kabinetlər elektroterapiya və müalicəvi idman üçün avadanlıqlarla təmin edilib. Yeni kabinetlərin fəaliyyətə başlaması hemofiliya və digər qanın laxtalanma pozğunluğundan əziyyət çəkən vətəndaşların xəstəliyin verdiyi fəsadların aradan qaldırılmasına və müalicənin multidisiplinar yanaşmasına xidmət edəcək.

Açılışda TƏBİB-in icraçı direktorunun müşaviri Pərvin Əkbərov, Xüsusi profilli tibbi xidmətlərin təşkili şöbəsinin müdiri Vüsal Yusifov Füzuli, Rayon Mərkəzi Xəstəxanasının direktoru Elçin Qurbanov və müşahidəçi qismində Vətəndaş Cəmiyyətinin nümayəndəsi, "Yeni Həyat" Sosial və Humanitar dayaq ictimai birliyinin rəhbəri Nailə xanım İsmayılova iştirak etmişlər. Onlar vətəndaşların məmnunluğu üçün tibbi xidmətlərin əlçatanlığının artırılması istiqamətində görüləcək işlərin davam ediləcəyini bildiriblər.





Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasının sədri Ayaz Hüseynov öz növbəsində Assosiasiyanın fəaliyyəti və dövlət səhiyyə qurumları ilə sıx əməkdaşlığın faydalı nəticələri haqqında məlumat vermişdir.

Sonda Füzuli Rayon Mərkəzi Xəstəxanasına yeni təhkim olunan Fizoterapevt/Kayropraktik Uzmanı Dr. Vüqar Aslanlı Füzulidə yaşayan hemofiliyalı pasiyentlərlə tanış olaraq onları müayinə edib.

## 16.03.2023-cü il tarixində Lənkəran Rayon Mərkəzi Xəstəxanasında yeni Fizioterapevtik və Reabilitasiya kabinetlərinin açılışı olub



Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB), Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyası, Novo Nordisk Hemofiliya Fondunun dəstəyi ilə TƏBİB-in tabeliyindəki Lənkəran Rayon Mərkəzi Xəstəxanasında yeni Fizioterapevtik və Reabilitasiya kabinetlərinin açılışı olub.



Kabinetlər bütün zəruri avadanlıqlarla təmin edilib. Yeni kabinetlərin fəaliyyətə başlaması hemofiliya və digər qanın laxtalanması pozğunluğundan əziyyət çəkən vətəndaşların xəstəliyin verdiyi fəsadların aradan qaldırılmasına və müalicənin multidisiplinar yanaşmasına xidmət edəcək.

Kabinetlərin açılışından sonra Lənkəran və ətraf rayonlardan olan həkimlər üçün elmi seminar keçirilib.

Seminarda Lənkəran Rayon Mərkəzi Xəstəxanasının direktoru Ağabala Kəlbiyev, TƏBİB-in Xüsusi profilli tibbi xidmətlərin təşkili şöbəsinin müdiri Vüsal Yusifov, Koordinasiya şöbəsinin müdiri Mübariz Ağayev çıxış edib. Onlar vətəndaş məmnunluğunun, tibbi xidmətlərə əlçatanlığın artırılması istiqamətində görüləcək işlərə davam ediləcəyini bildiriblər.

Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasının sədri Ayaz Hüseynov çıxışında Assosiasiyanın fəaliyyəti və dövlət səhiyyə qurumları ilə sıx əməkdaşlığın faydalı nəticələri barədə məlumat verib.

Seminarın elmi hissəsində Respublika Klinik Xəstəxanasının Hematologiya şöbəsinin müdiri Naidə Hüseynzadə, Respublika Klinik Xəstəxanasının Fizioterapiya şöbəsinin müdiri Yeganə Əzizova və Yeni Klinikanın həkim-hematoloqu Sevil Cəlilova praktik təqdimatlarla çıxış ediblər.





## Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasının dəvətilə Dünya Hemofiliya Federasiyasının rəhbərliyi başda prezidenti Sezar Qarrido olmaqla Azərbaycana işgüzar səfər etmişlər



1 iyun 2023-cü il tarixində Dünya Hemofiliya Federasiyasının və Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasının rəhbər heyətilə Azərbaycan Respublikası Səhiyyə Nazirliyində görüş təşkil olunmuşdur.

Görüş zamanı, Azərbaycanın səhiyyə naziri cənab Teymur Musayev hemofiliya xəstəliyi multidisiplinar yanaşma tələb etdiyini, onun müalicəsi daha kompleks şəkildə aparılmasının vacibliyini bildirilmişdir.

Dünya Hemofiliya Federasiyasının prezidenti Sezar Qarrido pasiyentlərin keyfiyyətli müalicəyə nail olmaq üçün dövlət səhiyyə qurumlarının ixtisaslaşmış pasiyent təşkilatları ilə əməkdaşlığın vacibliyi və faydalı olması barədə məlumat verdi. Bundan başqa Dünya Hemofiliya Federasiyasının prezidenti üçtərəfli əməkdaşlığa hazır olduqlarını bildirdi.

Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasının sədri Ayaz Hüseynov qanın laxtalanma pozğunluğundan əziyyət çəkən pasiyentlərin həyati vacib dərman preparatları olan VII faktor konsentratlarının əlçatanlığı və pasiyentlərin registrinin təkmilləşməsi haqda məlumat verdi.

Azərbaycan Respublikası Səhiyyə Naziri cənab Teymur Musayev Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasının sədri Ayaz Hüseynova qısa zamanda təkliflərin hazırlanmasını tapşırdı.

Yekunda birgə iş birliyi üçün gələcək layihələr planlaşdırıldı.

## 09.06.2023-cü il tarixində Göyçay Rayon Mərkəzi Xəstəxanasında yeni Fizioterapevtik və Reabilitasiya kabinetlərinin açılışı olub

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB), Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyası, Novo Nordisk Hemofiliya Fondunun dəstəyi ilə TƏBİB-in tabeliyindəki Göyçay Rayon Mərkəzi Xəstəxanasında yeni Fizioterapevtik və Reabilitasiya kabinetlərinin açılışı olub.



Kabinetlər bütün zəruri avadanlıqlarla təmin edilib. Yeni kabinetlərin fəaliyyətə başlaması hemofiliya və digər qanın laxtalanması pozğunluğundan əziyyət çəkən vətəndaşların xəstəliyin verdiyi fəsadların aradan qaldırılmasına və müalicənin multidisiplinar yanaşmasına xidmət edəcək.

Kabinetlərin açılışından sonra Göyçay həkimləri üçün elmi seminar keçirilib.

Seminarın açılışında Göyçay Rayon Mərkəzi Xəstəxanasının direktoru Yaşar Əhmədov və TƏBİB-in Xüsusi profilli tibbi xidmətlərin təşkili şöbəsinin müdiri Vüsal Yusifov iştirak edərək vətəndaş məmnunluğunun, tibbi xidmətlərə əlçatanlığın artırılması istiqamətində görüləcək işlərə davam ediləcəyini bildiriblər.

Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasının sədri Ayaz Hüseynov çıxışında Assosiasiyanın fəaliyyəti və dövlət səhiyyə qurumları ilə sıx əməkdaşlığın faydalı nəticələri barədə məlumat verib.

Seminarın elmi hissəsində Respublika Klinik Xəstəxanasının Fizioterapiya şöbəsinin müdiri Yeganə Əzizova, Respublika Klinik Xəstəxanasının Hematologiya şöbəsinin həkim-hematoloqu Mina Adıgözəlova, praktik təqdimatlarla çıxış ediblər.



## Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasının dəvətilə Dünya Hemofiliya Federasiyasının rəhbərliyi başda prezidenti Sezar Qarrido olmaqla Azərbaycana işgüzar səfər etmişlər

2 iyun 2023-cü il tarixində Dünya Hemofiliya Federasiyasının və Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasının rəhbər heyətilə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyində görüş təşkil olunmuşdur.

Görüş zamanı, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin idarə heyətinin sədri cənab Zaur Əliyev hemofiliya xəstəliyinin müalicəsi sahəsində dövlət qayğısı və son 2 ildə icbari Tibbi Sığortanın rolu haqqında qonaqlara geniş məlumat vermişdir.



Dünya Hemofiliya Federasiyasının prezidenti Sezar Qarrido pasiyentlərin keyfiyyətli müalicəyə nail olmaq, müasir elektron məlumat bazasının olmasının vacibliyini və Dünya Hemofiliya Federasiyasının üçtərəfli əməkdaşlığa hazır olduğunu bildirdi.

Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasının sədri Ayaz Hüseynov qanın laxtalanma pozğunluğundan əziyyət çəkən pasiyentlərin stomatoloji xidmətin xidmətlər zərfinə daxil edilməsinin vacibliyini, Tibbi Genetik Laboratoriyaya əlçatanlığının təmin edilməsinin vacibliyini, müasir elektro məlumat bazasının yaradılması və laboratoriyanın aktiv fəaliyyətinin vacibliyi haqda məlumat verdi.




Dünya Hemofiliya Federasiyası 50-dən çox ölkənin istifadə edtdiyi müassir məlumat bazasının modelini aidiyyəti dövlət qurumuna təqdim edəcəyini bildirdi.

Yekunda birgə iş birliyi üçün gələcək layihələr planlaşdırıldı.

## 3 iyun 2023-cü il tarixində Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasının dəvətilə Dünya Hemofiliya Federasiyasının iştirakı və Novo Nordisk Hemofiliya Fondunun dəstəyilə "Qanın Laxtalanma Pozğunluğundan Əziyyət Çəkən Pasiyentlərin Advokasiyasına" dair konfrans keçirildi

Konfransın açılışında Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasının sədri Ayaz Hüseynov Hemofiliya və Talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında Azərbaycan Respublikasının Qanunu və 2016-2020-ci illərdə Dövlət Proqramının icrasının qiymətləndirilməsi barədə çıxış etdi.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin koordinatoru Dr. Mehparə Kazımova İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Hemofiliyanın müalicəsində rolu və xəstəliyin statistikası haqqında bəhs etdi.



Konfransın rəsmi hissəsində Azərbaycan Respublikasi Səhiyyə nazirinin müavini cənab Nadir Zeynalov qanın laxtalanma pozğunluğundan əziyyət çəkən pasiyentlərin müalicəsi,



maarifləndirmə və bu sahədə Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyası ilə birgə fəaliyyəti istiqamətində mövcud perspektivləri haqqında bəhs etdi.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Tibbi Planlama Departamentinin rəhbəri Hikmət İbrahimli pasiyentlərin registrenin yenilənməsinin vacibliyini və bütün pasiyentlərin rediaqnostikası olacağını bildirdi.

TƏBİB-in xüsusi profilli tibbi yardım şöbəsinin müdiri Vüsal Yusifov, TƏBİB-in Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyası ilə birgə qanın laxtalanma pozğunluğundan əziyyət çəkən pasiyentlər üçün 2 stomatoloji kabinetin və rayon xəstəxanalarında artıq 3 fizioterapevtik kabinetlərin təchizatlanması haqqında və ilin sonunadək fizioterapevtik kabinetlərin sayı 5-ə çatdırılacağını bildirdi.

Respublika Kiliniki Xəstəxanasının direktoru Elviz Qasımov hemofiliyalı pasiyentlərin xəstəxananın hematalogiya şöbəsində müalicələri və gələcək perspektivlər barədə bəhs etdi.

Daha sonra Dünya Hemofiliya Federasiyasının prezidenti beynəlxalq standartlara uyğun hemofiliya mərkəzinin strukturu və multidisiplinar yanaşma haqqında çıxış etdi. Dünya Hemofiliya Federasiyasının proqramlar üzrə direktoru Salome Mekhuzla müasir elektron məlumat bazasının yaradılması və Von Villebrand xəstəliyinin müalicə protokolu haqqında bəhs etdi.

Konfransın ikinci hissəsində vacib mövzulardan olan həyati vacib dərman preparatlarının təchizatının artırılması, qanın laxtalanma pozğunluğundan əziyyət çəkən pasiyentlərin



stomatoloji xidmətinin tibbi sığortanın xidmətlər zərfinə əlavə edilməsi, İnhibitorlu və digər qanın laxtalanma pozğunluğundan əziyyət çəkən pasiyentlərin VII faktor dərman preparatı ilə təminatı, tibbi genetik laboratoriyanın əlçatanlığının təmin edilməsi və hemofiliya mərkəzinin nəzdində standartlara uyğun multidisiplinar xidmətin qurulması və hemofiliya mərkəzində uşaq şöbəsinin yaradılması kimi təkliflər müzakirə edildi və görüləcək işlərin planlaması aparıldı.



Daha sonra Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyası Dünya Hemofiliya Federasiyasına Twin Proqram hazırlanmasının vacibliyini vurğuladı və Dünya Hemofiliya Federasiyası Twin Proqram çərçivəsində üçtərəfli əməkdaşlıq müqaviləsi olaraq (Azərbaycan DHF və digər inkişaf etmiş avropa ölkəsi ilə əkizlər Proqramı) həkimlər, tibb bacıları və laborantların təkmilləşdirilməsi sahəsində işlərin aparılması planlaşdırıldı.

## TƏBİB-də Ümumdünya Hemofiliya Federasiyasının prezidenti ilə görüş keçirilib

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İcraçı direktoru Vüqar Qurbanov Ümumdünya Hemofiliya Federasiyasının (WFH) prezidenti Sezar Qarridonun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Görüşdə Dünya Hemofiliya Federasiyasının Qlobal İnkişaf üzrə direktoru Salome Mekhuzla, Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasının sədri Ayaz Hüseynov, Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasının sədr müavini Yeganə Tağıyeva, TƏBİB-in İcraçı direktorunun müavini Anar İsrafilov, Respublika Klinik Xəstəxanasının direktoru Elviz Qasımov və TƏBİB-in müvafiq departamentlərinin rəhbərləri iştirak ediblər.

Hemofiliyalı və talassemiyalı irsi qan xəstəliyinin daşıyıcısı olan xəstələrin müalicəsi, xəstəlik daşıyıcılarına multidisiplinar yanaşma, TƏBİB-in tabeli tibb müəssisələrində tətbiq edilən müalicə metodları, yaradılan şəraitlə bağlı görüşdə müzakirələr aparılıb.

Görüşdə multidisiplinar yanaşma tələb edən xəstəliyin müasir müalicə metodlarından istifadə yolu ilə həm fizioterapevtlərin, həm də orta tibb personalının və psixoloqların cəlb olunmasıyla erkən müalicənin vacibliyi qeyd olunub. Eyni zamanda dinamik və intensiv müalicənin əhəmiyyəti vurğulanıb.

TƏBİB-in İcraçı direktoru Vüqar Qurbanov Azərbaycanda bu xəstəliklərin daşıyıcısı olan şəxslərlə bağlı həyata keçirilən Dövlət Proqramları, Azərbaycan Respublikasının Prezidenti və Birinci vitse-prezidenti Mehriban Əliyeva tərəfindən göstərilən dövlət qayğısı barədə qonaqlara ətraflı məlumat verib. İcraçı direktor qeyd edib ki, irsi qan xəstəliyinin



daşıyıcısı olan pasiyentlərə fərdi yanaşma metodu tətbiq olunmalıdır. Bu, xəstəliyin zamanında düzgün müalicəsinin təmin edilməsi üçün vacib amildir.

Azərbaycanda sözügedən xəstəliklərin müalicəsi üzrə həyata keçirilən işləri yüksək qiymətləndirən Ümumdünya Hemofiliya Federasiyasının prezidenti Sezar Qarrido bildirib ki, müalicə protokolları yenilənib, yerli həkimləri təlimlərə cəlb etmək yolu ilə onların




yeni protokollara adaptasiyasını təmin etmək olar.

Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasının sədri Ayaz Hüseynov isə çıxışında beynəlxalq müalicə protokollarının Azərbaycan dilinə tərcümə olunduğunu və TƏBİB-in tabeliyindəki tibb müəssisələrində tibb işçiləri üçün təlimlərin təşkilinə dəstək ola biləcəklərini vurğulayıb.

## 25.10.2023-cü il tarixində "Qanın laxtalanma pozğunluğunun müalicəsinin advokasiyasına dair" peşəkarlar konfransı təşkil edildi.



Konfransda Azəbaycan Respublikası Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, TƏBİB, hemofiliyalı pasiyentlər və onların valideynləri iştirak etmişlər.

Konfransda Dünya Hemofiliya Federasiyasının nəşri olan Hemofiliyanın Müalicəsinə dair Təlimatlar kitabının 3-cü nəşrinin Azərbaycan dilinə tərcümə və redaktə edilmiş çapının təqdimatı baş tutdu.

Qeyd edək ki, DHF-ın 3 nəşri Dr. Valeh Hüseynov - t.ü.f.d., Milli Hematologiya və Transfuziologiya Mərkəzinin icraçı direktoru, Azərbaycan Hematologiya Mütəxəssisləri İctimai Birliyinin sədri, Dr. Sevil Cəlilova - Yeni Klinika Xəstəxanasının hematoloqu və



Ayaz Hüseynov - Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasının sədri tərcümə və redaktə edilmişdir.

Nəşrin İşçi qrupunun üzvləri: Respublika Klinik Xəstəxanasının hematologiya şöbəsinin həkimləri Dr. Naidə Hüseynzadə, Dr. Mina Adıgözəlova Dr. Şəbnəm Vəliyeva, Respublika Klinik Xəstəxanasının fizioterapiya şöbəsinin müdiri Dr. Yeganə Əzizova olmuşlar.

Çap edilən 3-cü nəşr TƏBİB-ə təqdim ediləcək və TƏBİB-in vasitədilə Respublika üzrə Hematologiya və digər profilli həkilərə təqdim ediləcək.

Konfransın ikinci hissəsində TƏBİB və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi Hemofiliyaya dair yeni hazırlanam dövlət proqramı və hazırda İcbari Tibbi Sığortanın yenilənmiş Xidmətlər Zərfi haqqında ərtaflı məlumat verilmişdir.

Konfransın sonunda yenilənən dövlət proqramına təkliflər irəli sürülmüşdür və müzakirələr aparılmışdır.

Pasiyentləri narahat edən suallar dövlət səhiyyə qurumlarına ünvanlayaraq cavablandırılmışdır və təkliflər nəzərə alınmışdır.

## 21.11.2023-cü il tarixində DÜNYA HEMOFİLİYA FEDERASİYASININ HEMOFİLİYANIN MÜASİR MÜALİCƏSİNƏ DAİR TƏLİMATLARIN 3-cü nəşrinin təqdimatı olmuşdur.






Qeyd edək ki, nəşr Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyası Dünya Hemofiliya Federasiyası tərəfindən rəsmi icazə almış və aparıcı mütəxəssislərlə birgə tərcümə və redaktə edilmişdir.

Təqdimat zamanı "Hemofiliya və digər qanın laxtalanma pozğunluğunun müasir müalicəsi" nə dair seminar keçirilmişdir.

Seminarda Bakı şəhərindən və regionlardan hematoloqlar, terapevtlər, təcili yardım həkimləri və digər ixtisaslı həkimlər qatılmışdır.

Seminar TƏBİB-in məsul əməkdaşı Romella Osmanovanın aparıcılığı ilə başlamışdır və açılışında Yeni Klinika Tibb Mərkəzinin direktoru Dr. Barat Yusubov təqdim edilən Hemofiliyanın müasir müalicəyə dair yeni nəşrin vacibliyini qeyd edərək, seminarın gedişatına uğurlar arzu etdi.

Daha sonra Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasının sədri Ayaz Hüseynov 2023-cü il ərzində Assosiasiyanın dövlət səhiyyə qurumları ilə birgə fəaliyyətindən və əldə edilən nəticələr barədə ətraflı məlumat verdi.

Yeni klinikanın hematoloqu Dr. Sevil Cəlilova 12 Fəsildən ibarət Dünya Hemofiliya Federasiyasinin Hemofiliyanin Müasir Müalicəsinə dair Təlimatlarının 3-cü nəşri haqqında həkimlərə ətraflı məlumat vermişdir.

Respublika Klinik Xəstəxanasının hematoloqu Dr. Mina Adıgözəlova Hemofiliyanın simptomatikası və müalicəsi haqqında çıxış etmişdir.

Seminarin sonunda həkimlər tərəfindən TƏBİB-in məsul əməkdaşı Romella Osmanovaya, Ayaz Hüseynova, Sevil Cəlilovaya və Mina Adıgözəlovaya suallar ünvanlanaraq cavablandırılmışdır.

Qeyd edilmişdir ki, İcbari Tibbi Sığortanın xidmətlər zərfinə əlavələr edilmişdir və vətəndaşlara olan tibbi xidmət ildən ilə təkmilləşdirilir.

## 8 sentyabr - Dünya Fizioterapiya Günündə Zaqatala Rayon Mərkəzi Xəstəxanasında Fizioterapevtik və Reabilitasiya Kabinetlərinin açılış mərasimi keçirilib

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB), Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyası, Novo Nordisk Hemofiliya Fondunun dəstəyi ilə TƏBİB-in tabeliyindəki Zaqatala Rayon Mərkəzi Xəstəxanasında yeni Fizioterapevtik və Reabilitasiya kabinetlərinin açılışı olub.

Kabinetlərin açılışında TƏBİB-in icraçı direktorunun müşaviri Pərvin Əkbərov, TƏBİB-in tibbi xidmətlərin təşkili departamenti, ixtisaslı tibbi xidmətlər şöbəsinin müdiri Vüsal Yusifov, Zaqatala Rayon Mərkəzi Xəstə-



xanasının direktoru Tamara Nurəliyeva, Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasının sədri Ayaz Hüseynov, Tibbi Reabilitasiya Mərkəzinin direktoru Rüfət Cabbarlı iştirak edib.

Kabinetlər bütün zəruri avadanlıqlarla təmin edilib. Yeni kabinetlərin fəaliyyətə başlaması hemofiliya və digər qanın laxtalanması pozğunluğundan əziyyət çəkən vətəndaşlarda xəstəliyin verdiyi fəsadların qarşısının alınmasına və müalicənin multidisiplinar yanaşmasına xidmət edəcək.

Kabinetlərin açılışında TƏBİB-in fizioterapiya və reabilitasiya işçi qrupunun üzvü Dr. Nəzir Rzalı fizioterapevtik kabinetdə pasiyentlərin qəbulunu həyata keçirdi.



Kabinetlərin açılışından sonra tibb müəssisəsinin həkimləri üçün fizioterapiyaya dair konfrans keçirilib.

Daha sonra 145 müxtəlif profilli həkimlərin iştirakı ilə konfrans keçirilib. Konfransın açılışında TƏBİB-in icraçı direktorunun müşaviri Pərvin Əkbərov və TƏBİB-in tibbi xidmətlərin təşkili departamenti, ixtisaslı tibbi xidmətlər şöbəsinin müdiri Vüsal Yusifov və Zaqatala Rayon Mərkəzi Xəstəxanasının direktoru Dr.Tamara Nurəliyeva vətəndaş məmnunluğunun, tibbi xidmətlərə əlçatanlığın artırılması istiqamətində görüləcək işlərə davam ediləcəyini bildiriblər.

Konfransın gedişatında Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasının sədri Ayaz Hüseynov 2023-cü il üzrə Assosiasiyanın dövlət səhiyyə qurumlar ilə birgə əməkdaşlıq nəticəsində müalicənin keyfiyyətinin artırılması haqda və gələcək prespektivlər barədə çıxış etdi. Növbəti çıxış Tibbi Reabilitasiya Mərkəzinin direktoru Rüfət Cabbarlı Mərkəzin imkanları və fizioterapiyanın müxtəlif xəstəliklərin müalicəsində vacib rol oynadığını vurğulamışdır.

Yekunda həkimlər arasında sual cavab ilə təcrübə mübadilasi aparıldı.






## Azərbaycanda fəaliyyət göstərən peşəkar Pasiyent Təşkilatlarının III Respublika Forumu öz işini uğurla başa çatdırıb



Forumun əsas müzakirə mövzuları şəkərli diabet, hemofiliya, talassemiya, leykemiya, donor qanının tədarükü, kistik fibroz, parkinson, spinal əzələ atrofiyası, vərəm xəstəlikləri və eşitmə məhdudiyyətli pasiyentlərə koxlear implantasiya haqqında olub.

150 nəfərdən çox iştirakçının qatıldığı Forumun açılışında Pasiyent Təşkilatları İttifaqının sədri Ayaz Hüseynov "Pasiyent təşkilatları ittifaqının məqsədi və fəaliyyət istiqamətləri" mövzusunda çıxış edib.

TƏBİB-in İcraçı direktorunun müşaviri Pərvin Əkbərov, Tibbi təhsil və innovasiyalar departamentinin rəhbəri Teymur Mirzəbəyli, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Tibbi planlama departamentin Monitorinq şöbəsinin məsləhətçisi Kəmalə Əliyeva, Ombudsman Aparatının Beynəlxalq təşkilatlar və vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıq şöbəsinin sektor müdiri Müqalib Mahmudov və Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəsi Tural Qulu forumda yaxın gələcəkdə görüləcək iş, plan və perspektivlər mövzusunda çıxış ediblər.




Forumda o cümlədən, dövlət müəssisələrində çalışan həkim mütəxəssislər və təşkilat rəhbərləri çətinliklər, problemlər və gələcək perspektivlər haqqında ümumilikdə 10 mövzu üzərində çoxsaylı çıxışlar ediblər.

Qeyd edək ki, III Respublika Forumunu müxtəlif xəstəliklərlə məşğul olan ixtisaslaşmış təşkilatları özündə birləşdirən Pasiyent Təşkilatları İttifaqı təşkil edib. İttifaq il ərzində dövlət səhiyyə qurumları ilə birgə müxtəlif maarifləndirici və elmi konfranslar təşkil edir.



"Hemofiliyalı Xəstələr" İctimai Birliyi
Ünvan: AZ1147, Bakı şəhəri, Adil Məmmədov küç. 83
☎ +994125131539 www.hemofiliya.az

İnformasiya bülleteninin buraxılışında maliyyə dəstəyi üçün octapharma şirkətinə təşəkkürümüzü bildiririk.